


# GÜNDOĞAR

18 dekabr 2018-ci il №37-38 (6699)

İCTİMAİ-SİYASİ QƏZET

Qəzet 1931-ci ildən çıxır. e-mail: gundogarqazeti@box.az

Təsisçilər: Neftçala Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi


# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN VƏFATINDAN 15 İL ÖTDÜ

## Həmişə ruhumuzda, qəlbimizdəsən



Mənsub olduğu xalqın, millətin dərin hörmət və etimadını, sonsuz sevgi və məhəbbətini qazanmaq hər adama, hər insana nəsib olmur. Bu olduqca böyük bir səadət, böyük bir xoşbəxtlikdir. Məhz bu böyük səadətə, xoşbəxtliyə nail olduğuna görə türk dünyasının böyük oğlu, dahi şəxsiyyəti, dünyanın ən böyük Azərbaycanlısı ulu öndər Heydər Əliyev xalqımızın, millətimzin şöhrət tacı, qürur mənbəyidir. Bu böyük, əvəzolunmaz şəxsyyətin böyük hünəri, yorulmaz fəaliyyəti sayəsində Azərbaycan son dövr tariximizin ziqzaqlı yollarından şərəflə keçərək, çətin sınaqlarından uğurla çıxaraq dünyanın ən qabaqcıl ölkələrindən birinə çevrilib. Demokratiyanın aliliyi, dinc, sakit həyat tərzi, davamlı inkişaf dinamikası müasir Azərbaycanı xarakterizə edən amillərdir. Məhz bu strateji amillərin vəhdəti sayəsində ölkəmiz dünya və Avropa ölkələri ilə bir cərgədə demokratik, hüququ və dünyəvi dövlət quruculuğu yolunda inamla addımlayaraq həmin ölkələrin arasında özünün layiqli yerini tapıb. Bütün bu uğurlar asan qazanılmayıb, o uğurların bu gün möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən yüksələn xətlə davam etdirilməsi respublikamızı yeni-yeni nailiyyətlərə qovuşdurur.

Ulu öndər Heydər Əliyev haqqında adi şəkildə danışmaq, adi söz demək mümkün deyil. Onun barəsində səmimi ifadə edilən hər bir fikirdə bir ucalıq, yüksək məna çaları duyulur. Müxtəlif ölkələrinin məşhur siyasi xadimlərinin ümummilli liderlə bağlı söylədiklərini bir yerə yığsaq, dünyanın ən nəhəng siyasi xadimlərindən birinin əzəmətli portreti alınar. Bəşəriyyət tarixində görkəmli şəxsiyyətlər çox olub. Spartakdan, Babəkdən üzü bəri nə qədər qəhrəmanlar azadlıq və müstəqillik uğrunda mübarizə aparıb. Onların çoxu sonda məğlubiyyətə uğrayıb, tərəfdarları qan gölündə boğulub. Elələri də olub xalqının, millətinin, dövlətinin xilaskarına çevrilib. Fransız xalqının əfsanəvi qəhrəmanı Şarl de Qoll, türk dövlətçiliyinin xilaskarı Mustafa Kamal Atatürk kimi. Ulu öndər Heydər Əliyev də tarixin belə nəhəng, nadir şəxsiyyətlərindəndir. Biz xoşbəxtik ki, bu böyük şəxsiyyəti gözlərimizlə görmüşük, onun rəhbərliyi altında yaşamış və işləmişik.

Yaxşı yadımdadır. Onda orta məktəbin 9-cu sinfində oxuyurduq. 1969-cu ildən başlayaraq respublikamızda haqq-ədalət bərpa olunmağa başladı. Orta məktəbi bitirdiyim elə birinci ildə ulu öndərin respublikada imkansızlara münbit şərait yaratması sayəsində kasıb bir ailənin ilk övladı kimi instituta qəbul olundum, 22 yaşımda ali təhsilli müəllim kimi əmək fəaliyyətinə başladım. Allaha min şükür ki, zəhmətim hədər getmədi, özümə gün-güzəran düzəldərək ev-eşik sahibi oldum.

44 illik müəllimlik təcrübəmdə bir sadə həqiqəti başa düşüb anlamışam ki, Heydər Əliyevin siyasi kursu xalq maarifinin hərtərəfli inkişafı ilə həmişə uzlaşıb, bu inkişafa xidmət edib, təkan verib. İstər ulu öndərin sovet dönəmindəki, istər ikinci dəfə hakimiyyətə qayıtdığı 1993-cü ildən sonrakı hakimiyyəti dövründə təhsil sistemində olduqca əhəmiyyətli islahatlar aparılıb, Azərbaycanda ümumən məktəb sistemi əsaslı şəkildə dəyişdirilərək dünya standartları səviyyəsinə qaldırılıb. Hər yerdə köhnə məktəblərin yerində yeniləri tikilib, bu məktəblər müasir avadanlıqlarla təchiz olunub. Ən başlıcası isə dərsliklərimiz büsbütün milliləşdirilib, milli-mənəvi dəyərlərimiz dərsliklərimizdə öz əksini tapıb. Başqa elm sahələrində olduğu kimi, təhsil sahəsində də dəyərli kadr potensialı formalaşıb. Bütün bunların sayəsində Azərbaycan sözün əsl mənasında dünyaya günəş kimi doğub. Buna görə biz ilk növbədə ulu öndər Heydər Əliyevə minnətdarıq. Biz bir də bu dahi, müdrik insana ona görə minnətdarıq ki, doğma Neftçalamız 1973-cü ildə məhz ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə təşkil olunaraq yenidən müstəqil rayon kimi fəaliyyətə başlayıb, sürətlə inkişaf edib, bir-birindən layiqli uğurlara imza atıb.

Deyir sev ki, seviləsən, xatırla ki, xatırlanasan, qiymətləndir ki, qiymətləndiriləsən, yaşat ki, yaşadılasan! Doğrudan da həyat sevənlərin, sevilənlərin, xatırlayanların, xatırlananların, qiymətləndirənlərin, qiymətləndirilənlərin, yaşadanların, yaşadılanlarındır. Ulu öndər Heydər Əliyev də ən layiqli insanları həmişə ürəkdən sevir, xatırlayır, qiymətləndirir, yaşadırdı. Buna görə xalq da onu daim ürəkdən sevir, xatırlayır, qiymətləndirir, qəlbində əbədi yaşadır.

Məhəmməd peyğəmbər (s) buyurur ki, Adəm övladının ölümü ilə əməlləri də başa çatır. Üç şeydən başqa: imkansızlara verdiyi sədəqədən, dünyaya bəxş etdiyi nurlu övladdan və hamıya fayda gətirən dərin elmindən. Bunlar heç zaman itmir. Möhtərəm Heydər Əliyev də ömrü boyu günahkarları bağışlayıb, əfv edib, insanlara töhfələr bəxş edib, yerində möhtərəm Prezidentimiz İlham Əliyev kimi müdrik bir övlad qoyub gedib. O ki qaldı elmə, biliyə, Heydər Əliyev hərtərəfli elmə, biliyə malik əsl filosof idi. Heç kəsə bənzəməyən təkrarsız filosof. Bu bilik, bu elm Azərbaycana zaman-zaman fayda gətirib, bundan sonra da gətirəcək.

Böyük şəxsiyyətlər heç zaman ölmürlər, yalnız məkanlarını dəyişirlər. Ulu öndər Heydər Əliyev də beləcə məkanını dəyişib, o dahi şəxsiyyət həmişə diridir, həmişə bizimlə bir yerdədir. Ümummilli lider cismən bizdən ayrı olsa da fikirləri, düşüncələri, ideyaları, müdrik məsləhətləri, tövsiyələri həmişə qəlbimizdədir, gördüyü əzəmətli işlər heç vaxt yadımızdan çıxıb unudulmur.

**Ağalar AĞAYEV,**
**Yenikənd kənd ümumi orta məktəbinin müəllimi**

## Neftçalada anım günü



Dünyada fəaliyyəti xalqının milli dövlətçilik tarixinin ayrılmaz hissəsinə çevrilən az siyasi xadim tapmaq olar. Heydər Əliyev məhz belə nadir tarixi şəxsiyyətlərdəndir. İctimai-siyasi həyatımızın elə bir sahəsi yoxdur ki, orada ümummilli liderin izi qalmasın, həmin sahənin bünövrəsini ulu öndər qoymasın. Bu gün hara baxsaq, ictimai həyatımızın hansı tərəfinə fikir versək orada ümummilli liderin izlərinə, nişanələrinə rast gələ bilərik.

Ulu öndər Heydər Əliyevin ölməz xatirəsi biz neftçalalılar üçün xüsusilə əziz, doğma, unudulmazdır. Ona görə ki, rayonumuzu məhz ümummilli lider Heydər Əliyev 1973-cü ildə Salyan rayonundan ayıraraq müstəqil rayon kimi təşkil edib, ona yeni həyat bəxş edıb. Həmin dövrdən etibarən Neftçala sürətlə tikilməyə, qurulmağa, inkişaf etməyə başlayıb. Rayonumuz bu gün də durmadan tikilir, qurulur, inkişaf edir, sabaha doğru inamlı addımlarla irəliləyir. Neftçala o vaxt ulu öndərin təklifi ilə Salyan rayonundan ayrılaraq müstəqil rayon kimi təşkil olunmasaydı yəqin ki, bütün bu irəliləyişlər baş verməz, bu uğurlarların heç biri qazanılmazdı. Ona görə rayonumuzun sakinləri ulu öndər Heydər Əliyevi həmişə dərin ehtiram hissi ilə yad edir, bu böyük şəxsiyyətin işıqlı ruhuna dualar oxuyurlar. Bütün böyük tədbirlərin iştirakçıları həmişə əvvəlcə ümummilli liderin şəhərin mərkəzindəki əzəmətli abildəsi önünə gəlir, ulu öndərin xatirəsinə ehtiram əlaməti olaraq buraya tər çiçəklər düzürlər. Yeni ailə quran gənclərin nikahlarının qeyd olunması mərasiminə abidənin ziyarətindən başlamaları da bu dahi insana olan ehtiramdan irəli gəlir.





Dekabrın 12-sində respublikamızın hər yerində ümummilli lider Heydər Əliyevin vəfatı günü dərin sayğı ilə qeyd olundu, bu münasibətlə anım mərasimləri keçirildi. Həmin gün neftçalalılar da qürurlu hisslərlə yaşadılar. Bu münasibətlə çoxdan başlamış tədbirlər silsilə şəklində davam etmişdi. Rayonun hər yerində — idarə və müəssisələrdə, məktəblərdə, uşaq tərbiyə müəssisələrində, mədəniyyət obyektlərində ulu öndərin xatirəsi ehtiramla yad olunmuş, bu böyük şəxsiyyətin ömür kitabı hərtərəfli vərəqlənmiş, böyük işlərindən, əməllərindən söhbət açılmışdı.





Həmin gün ulu öndərin adını daşıyan meydan xüsusilə izdihamlı idi. Rayonun hər yerindən bura aramsız insanlar axışırdı. Ümummilli liderin işıqlı xatirəsinə həsr olunan əzəmətli melodiyalar pərdə-pərdə ətrafa yayılır, meydana toplaşanların qəlbindəki qürur hissini daha da yüksəldirdi. Meydana toplaşan cavanlar yaşlı nəslin isti xatirələrini maraqla dinləyirdilər. Bu xatirələr gənclərdə ülvi hisslər oyadır, onları vətənimizin daha da çiçəklənməsi naminə yeni mübarizələrə ruhlandırırdı.

Təyin olunan vaxtda rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyev, başçı yanında fəaliyyət göstərən şuranın üzvləri, rayonun rəhbər işçiləri də meydana gəldilər. Buraya toplaşanlar onları səmimiyyətlə salamladılar.

Abidə önünə rayon icra hakimiyyəti adından əklil qoyuldu. Sonra idarə və müəssisələrin kollektivləri buraya tər çiçəklər düzdülər. Çoxlu sayda sadə insanları meydana gətirən ulu öndərə olan dərin sayğı, sevgi hissləri idi. Onlar da bu dahi insana sevgilərini ətirli güllərlə, çiçəklərlə bildirdilər.

Gülqoyma mərasimindən sonra Heydər Əliyev Mərkəzində ulu öndərin vəfatının 15-ci ildönümünə həsr olunmuş sərgilərə, rəsm əsərlərinə baxış oldu. Şəhər 1 və 4 saylı məktəblərin şagirdləri ədəbi-bədii kompozisiyalar nümayiş etdirdilər. 1 saylı bağçada tərbiyə alan balacalar Heydər babalarını vəsf edən şeirlər söylədilər, mahnılar oxudular.





## Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə rayon ictimaiyyətinə təbrik

**Hörmətli neftçalalılar!**

Sizi qarşıdan gələn əziz bayramlar — Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Dünya Azərbaycanlılarının Həmrəylik Günü ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1991-ci ildə Naxçıvan Ali Məclisinin qərarına əsasən təsis olunmuşdur. Yarandığı gündən də böyük sevinclə qeyd olunan bu əziz bayram xalqımızı, millətimizi birliyə, həmrəyliyə səsləyir. Dünyanın hansı yerində, hansı guşəsində yaşamasından asılı olmayaraq hər bir soydaşımıza öz doğma vətəni haqqında düşünməyə, günü-gündən inkişaf edən, beynəlxalq aləmdə özünə böyük nüfuz qazanan müstəqil Azərbaycan haqqında nə isə bir iş görməyə çağırır.

Ümummilli lider Heydər Əliyevin qurub yaratdığı, əbədi və dönməz etdiyi müstəqil Azərbaycan Respublikası onların da doğma vətəni, həmvətənlərimizin güvəndikləri, istinad etdikləri müqəddəs məkandır. Soydaşlarımız əmindirlər ki, onların beynəlxalq aləmdəki hüquqlarını yalnız müstəqil Azərbaycan qoruya bilər və biz bunun dəfələrlə şahidi olmuşuq. Bunu nəzərə alaraq xaricdə yaşayan həmvətənlərimiz də respublikamızın güclənməsi naminə ardıcıl iş aparır, Azərbaycan həqiqətlərinin dünya içtimaiyyətinə çatdırılmasında fəal iştirak edirlər. Soydaşlarımız arasındakı bu birlik heç də birdən-birə yaranmamışdır. Bu böyük birliyin təməlini ilk dəfə qoyan ümummilli lider Heydər Əliyev olmuşdur. Dünyada yaşayan azərbaycanlıların bir araya gəlmələri, xarici ölkələrdəki diaspor təşkilatlarının yaradılması, həmvətənlərimizin qəlbindəki Vətən sevgisinin gücləndirilməsi üçün bu dahi insan çox böyük işlər görmüşdür. Dünya Azərbaycanlılarının I Qurultayının respublikamızın paytaxtında keçirilməsi bu işdə xüsusi əhəmiyyət kəsb etmişdir. Dünyanın ayrı-ayrı ölkələrində, yerlərində yaşayan, bir-birlərini tanımayan insanlar məhz bu ali məclisdə bir araya gəldilər, yaxından tanış oldular, əlaqə yaratdılar, ünsiyyət qurdular. Bundan bir qədər sonra çox mühüm bir qurumun — Dünya Azərbaycanlıları ilə İş üzrə Dövlət Komitəsinin fəaliyyətə başlaması soydaşlarımızla əlaqələrin daha sıx şəkildə əlaqələndirilməsinə şərait yaratdı. Ulu öndər Heydər Əliyev xarici ölkələrə səfərləri zamanı bu vacib məsələni daim diqqətdə saxladı, soydaşlarımızla səmimi görüşlər keçirdi, onların qayğı və ehtiyacları ilə maraqlandı, bir çox məsələlərin həllində köməyini əsirgəmədi. Bütün bunlar isə təsirsiz qalmadı. Bir-birlərindən ayrı düşmüş soydaşlarımız getdikcə daha sıx şəkildə birləşərək vahid qüvvəyə çevrilməyə başladılar.

Müstəqil Azərbaycanın inkişafı, tərəqqisi naminə ümummilli lider Heydər Əliyevin başladığı quruculuq işlərini bütün sahələrdə uğurla davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyev xaricdə yaşayan soydaşlarımızla əlaqələrin möhkəmləndirilməsi istiqamətində də çox mühüm addımlar atmağa nail oldu. Onlarla əlaqələr daha da möhkəmləndirildi. Zəngin təbliğat və təşviqat vasitələrilə təchiz olunan, tamamilə yenidən qurulan, sağlamlaşdırılan diaspor təşkilatları sözün əsl mənasında güc mərkəzlərinə cevrildi. Xaricdəki diaspor təşkilatlarımızla türk diaspor təşkilatlarının fəaliyyətlərinin daha yaxından əlaqələndirilməsi bu gücə yeni güc qatdı. Bütün bunlar isə saxta faktlar üzərində qurulmuş erməni təbliğatının ifşa olunmasında, Azərbaycan həqiqətlərinin dünya içtimaiyyətinə çatdırılmasında çox mühüm rol oynadı. Son illər Heydər Əliyev Fondunun dəstəyilə zəngin faktlar, məlumatlar əsasında hazırlanan kitabçalar, disklər və digər təbliğat vasitələri bu vacib işin təsir gücünü xüsusilə artırıb, beynəlxalq aləmin diqqətini özünə cəlb edib.

Dünya Azərbaycanlılarının Həmrəylik Günü — 31 dekabr eyni zamanda yola saldığımız 2018-ci ilin son gecəsidir. 2019-cu ili qarşılayan xalqımız böyük sevinc içindədir. Yola saldığımız il ölkəmiz üçün çox əlamətdar olmuşdur. Ən başlıcası odur ki, ilin əvvəlində keçirilən prezident seçkilərində xalqımız Heydər Əliyev siyasətinə sədaqətini bir daha əyani şəkildə nümayiş etdirərək bu yolun sadiq davamçısına — möhtərəm İlham Əliyevə səs verdi, bu müdrik insanı yenidən rəhbər seçdi. Taleyüklü bu seçimdə qədirbilən neftçalalılar da yüksək fəallıq göstərərək xalqımızla birlik, həmrəylik nümayiş etdirdilər. Son illər Vətənimizin ayrılmaz güşəsi kimi doğma Neftçalamızın da sürətlə inkişaf edərək tanınmaz dərəcədə dəyişməsi, müasirləşməsi dövlətimizin başçısı cənab İlham Əliyevin rayonumuza göstərdiyi diqqət və qayğısının bəhrəsidir. Daha böyük yüksəliş, tərəqqi isə hələ qabaqdadır. Yeni-yeni layihələrin həyata keçirilməsi, quruculuq işlərinin durmadan genişləndirilməsi bütün ölkəmiz kimi doğma Neftçalamızın da inkişafına öz töhfələrini verəcəkdir. Əminik ki, Prezident İlham Əliyevin müdrik siyasəti, ardıcıl səyləri sayəsində addım-addım yaxınlaşmaqda olduğmuz başlıca məqsədimizə də çatacağıq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi də özünün müsbət həllini tapacaq, qaçqın və məcburi köçkünlərimiz tezliklə dədə-baba torpaqlarına qayıdacaqlar.

Bayram əhvali-ruhiyyəli belə əziz günlərdə biz ölkəmizin azadlığı, torpaqlarımızın bütövlüyü uğrunda canlarından keçən qəhrəman Vətən övladlarını, igid neftçalalıları da unuda bilmərik. Onları böyük məhəbbətlə yad edir, şəhidlərimizə ulu Yaradandan qəni-qəni rəhmət diləyirik.

**Əziz neftçalalılar!**

Sizi bir daha qarşıdan gələn əziz bayramlar — Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə təbrik edirəm, hər birinizə əmin-amanlıq, xoş günlər diləyirəm. Arzu edirəm 2019-cu il özü ilə ruzi-bərəkət, qələbələr gətirsin.

**İsmayıl VƏLİYEV,**
**Neftçala Rayonu**
**İcra Hakimiyyətinin başçısı**

# 26 İLLİK ŞANLI ZƏFƏR YOLU

Ölkəmizdə çox güclü siyasi qüvvəyə çevriliş Yeni Azərbaycan Partiyasının yaradılmasından 26 il ötür. 26 il bundan qabaq ölkəmiz heç də belə sabit deyildi. Hər tərəfdə bir başıpozuqluq, hərc-mərclik vardı. Xalq uzun on illər həsrətində olduğu, intizarla gözlədiyi müstəqilliyinə nail olsa da, onun sevincini, fərəhini yaşaya bilmirdi. AXC-Müsavat cütlüyünün idarəetmədəki səriştəsizliyi hakimiyyətdə boşluqların yaranmasına şərait yaratmışdı. Bundan istifadə edən pozucu qüvvələr istədiklərini edir, qanunsuzluqlar törədir, içtimai-siyasi vəziyyəti gündən-günə mürəkkəbləşdirirdilər. İş o yerə çatmışdı ki, qardaş qardaşa güllə atırdı, ölkə vətəndaş müharibəsinin astanasında idi.

Şübhəsiz, respublikanı bürümüş belə dərin siyasi, iqtisadi, sosial böhran xalqın avanqard quvvəsi olan ziyalıları narahat etməyə bilməzdi. Məhz belə bir vaxtda Azərbacannın sabahını düşünən insanlar ölkəni düşdüyü böhrandan çıxara biləcək yeni bir siyasi partiya yaratmaq təşəbbüsü ilə çıxış etdilər. Həmin dövrdə ölkənin qabaqcıl ziyalılarının təşəbbüsünü müsbət qarşılayan ulu öndər Heydər Əliyev Azərbaycanın tarixinə qızıl hərflərlə yazılacaq bir qərara imza atdı. 1992-ci il noyabr ayının 21-i respublikamızın içtimai-siyasi həyatında dönüş nöqtəsi oldu. Ümummilli lider Heydər Əliyevin işıqlı ideyaları, uzaqgörənliyi və qətiyyəti ilə yaradılan Yeni Azərbaycan Partiyası qısa vaxtda şərəfli yol keçərək bu gün yenilməz qüvvəyə çevrilmişdir. Hazırda 700 mindən artıq insanı öz ətrafında birləşdirən partiya gündən-günə inkişaf edərək genişlənməkdədir.



YAP-ın rayonumuzdakı təşkilatı da onun tərkib hissəsidir. Bu təşkilat da asanlıqla yaranmamışdır. Həmin illərdə Azərbaycanın xoşbəxt sabahını



Heydər Əliyev ideyalarında görən neftçalalı ziyalılar da qaragüruhun təqiblərindən çəkinməyərək məqsədlərinə nail ola bilmişdilər. O vaxtdan bəri respublika təşkilatının ayrılmaz parçası kimi rayon təşkilatının sıraları da qabaqcıl gənclərin hesabına durmadan möhkəmlənməkdədir. Bu gün yetkin siyasi qüvvəyə çevrilən rayon təşkilatı da daim irəli gedir, uğurlar qazanır.

Noyabrın 21-i — partiyanın yaradıldığı gün rayon təşkilatı üzvləri üçün də əzizdir, unudulmazdır. Həmin gün onlar da sevinclərini yüz minlərin sevincinə qataraq əsl bayram əhvali-ruhiyyəsi ilə yaşayırlar. Bu il də belə oldu. Əvvəlcə partiyanın üzvləri Heydər Əliyev Mərkəzinə toplaşaraq o günləri yenidən böyük qürurla, məhəbbətlə yad etdilər. Yeni Azərbaycan Partiyası rayon təşkilatının sədri Anar Cəfərov partiyanın yaradılmasının ildönümünə həsr olunmuş toplantını açaraq 26 illik şanlı mübarizə tarixinə nəzər saldı, qazanılan parlaq qələbələrdən danışdı.

Toplantıda iştirak edən rayon təşkilatı idarə heyətinin üzvləri Vurğun Əkbərov, Telman Zahidov, YAP rayon təşkilatının Qadınlar Şurasının sədri Gültəkin xanım Sadıqova və başqaları da çıxış edərək fikirlərini söylədilər, xatirələrini bölüşdülər, qarşıda duran vəzifələrdən söhbət açdılar.

Sonra Yeni Azərbaycan Partiyası rayon təşkilatının üzvləri siyasi qurumun yaradıcısı ümummilli lider Heydər Əliyevin abidəsi önünə gələrək buraya tər çiçəklər düzdülər, ulu öndərə özlərinin dərin hörmət və ehtiramlarını bildirdilər.

# Məhəbbətlə yad olundu

Ulu öndərin vəfatının 15-ci ildönümü ilə bağlı ikinci tədbir də Heydər Əliyev Mərkəzində keçirildi. Hamının çöhrəsində kədər qarışıq bir qürur vardı. Bu heç də təsadüfi deyildi. Ən çətin məqamlarda müstəqilliyimizi qoruyub saxlayaraq ona əbədiyaşarlıq haqqı verən, Vətənini, xalqını fəlakətdən xilas edən bu dahi insanın cismən yoxluğu insanları nə qədər sıxsa da, qurduqları, yaratdıqları onları bir o qədər qürurlandırır, sevindirir.

Mərkəzin işıqlı salonunda da bu ovqat yaşanırdı. Ümummilli lider Heydər Əliyevin vəfatının 15-ci ildönümünə həsr olunmuş anım mərasimini Mərkəzin direktoru Könül Məmmədova açaraq tədbir iştirakçılarını ulu öndərin ömür yolunu özündə əks etdirən videoçarxa baxmağa dəvət etdi. Ən unudulmaz anları, məqamları özündə əks etdirən bu film tamaşaçılarda kövrək hisslər, duyğular oyatdı, onların xəyalını ötən illərə apardı.

Sonra Yeni Azərbaycan Partiyası rayon təşkilatının sədri Anar Cəfərov ulu öndərin xalqımız, millətimiz qarşısındakı misilsiz xidmətlərindən danışdı. Qeyd etdi ki, bu dahi insanın sovet dönəmindəki fəaliyyətinin bütün istiqamətləri məhz Azərbaycanın gələcək müstəqilliyinə, xalqımızın xoşbəxtliyinə hesablanmışdı. Ona görə biz bu günkü nailiyyətlərimizə, uğurlarımıza görə ilk növbədə ümummilli liderə borcluyuq, minnətdarıq. Əgər o illərdə bünövrə lazımınca qoyulmasaydı, bu gün ölkəmiz möhkəm dayaqlar üzərində dayana bilməzdi.



Tədbirdə iştirak edən cavanın da, yaşlının da ürəyi sözlə, söhbətlə dolu idi. Rayon mərkəzi xəstəxanasının baş həkimi, respublikanın Əməkdar həkimi Telman Zahidovun, rayon ağsaqqallar şurasının sədri Zakir Sailovun, rayon maliyyə idarəsinin rəisi Rəşid Manafovun, rayon təhsil şöbəsinin müdiri Əjdər Kərimovun və neçə-neçə başqa nisbətən yaşlı insanların o dövrlə bağlı isti xatirələrini dinləmək hamı üçün xoş oldu. Bu xatirələr onlarda zəngin təəssürat yaratdı.

YAP rayon təşkilatı Gənclər Birliyinin sədri Ülvi Fərzəliyev, rayon icra hakimiyyəti başçısı aparatının məsul işçisi Vasif Əliyev, şəhər 4 saylı tam orta məktəbinin direktoru Şəfəq Balaşova və digər gənclər isə ulu öndərin işıqlı yolunun bu gün də layiqincə davam etməsindən, son illərdə əldə olunan parlaq nailiyyətlərdən, Prezident İlham Əliyevin bu nailiyyətlərdəki rolundan ürək dolusu söhbət açdılar. Bildirdilər ki, onlar ulu öndərin işıqlı ideyalarına daim sadiq qalacaqlar, Vətənin daha da abadlaşması, çiçəklənməsi, başlanmış yolun uğurla davam etməsi üçün bundan sonra da səylə çalışacaqlar.

Tədbir boyu ulu öndəri anan, məhəbbətlə yad edən, genişmiqyaslı fəaliyyətindən ürək dolusu danışan iştirakçılar sonda bu dahi insana uca Yaradandan qəni-qəni rəhmət dilədilər.

**Z.MƏMMƏDOV**

## Rayon rəhbərinin səyyar qəbulları

# BUNLAR MÜSBƏT HƏLL OLUNUB

Rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyevin fəaliyyətinin başlıca istiqamətlərindən biri də istər rayon mərkəzində, istərsə də ayrı-ayrı yaşayış məntəqələrində vətəndaşları qəbul edərək onların müraciətlərini dinləməkdir. Özü də qaldırılan hər bir məsələ diqqətlə araşdırılır, həll olunur, vətəndaşa konkret cavab verilir. Bu dəfəki yazımızda da bu barədə söhbət açacağıq. Edilən müraciətlərin nəticələrindən, bununla əlaqədar görülən işlərdən, həyata keçirilən tədbirlərdən danışacağıq.



Noyabrın 14-də Yuxarı Qaramanlı inzibati ərazisində rayon rəhbəri ilə keçirilən səyyar qəbul bu cəhətdən xarakterikdir. Səyyar qəbulda Prezident Administrasiyasının məsul işçisi Əlibaba Əliyev də iştirak edirdi.



Vaxtilə bu ərazi ən çox narahatlıq doğuran, şikayət olunan yer idi. Sakinlər dəfələrlə Cəngən-Şirvanlı yolunun bərbad vəziyyətdə olmasından, Yuxarı Qaramanlı, II Qaralı, Pirəbbə kəndlərindəki məktəb binalarının yararsızlığından, əraziyə təbii qazın verilməməsindən söhbət açmışdılar, bununla bağlı rayon rəhbərinə müraciətlər etmişdilər, narahatlıqlarını bildirmişdilər. Sonuncu narahatlıq doğuran müraciət isə Neftçala-Salyan və Cəngən-Şirvanlı yollarını birləşdirən kənddaxili ara yolunun bərbad vəziyyətdə olması ilə bağlı idi. Əvvəlki səyyar qəbuldan fərqli olaraq sonuncu qəbulda sakinlər müraciətlərdən daha çox minnətdarlıq duyğularını ifadə etdilər. Qeyd etdilər ki, dövlət başçısı cənab İlham Əliyevin qayğı və diqqəti, rayon rəhbərliyinin köməyi sayəsində Cəngən-Şirvanlı yolu, Yuxarı Qaramanlı, II Qaralı və Pirəbbə kəndlərindəki məktəb binaları tamamilə yenidən qurulub, Cəngən-Şirvanlı, Neftçala-Salyan yollarını birləşdirən kəndarası yola asfalt döşənib. Buraya ərazidə yaşayan ayrı-ayrı sakinlərin müəyyən çətinlik və problemlərlə bağlı fərdi müraciətlərinin müsbət həll olunduğunu da əlavə etsək, onda görülən işlərin, həll olunan məsələlərin miqyasını daha aydın şəkildə təsəvvür etmək olar.

Neftçala şəhər 3 saylı tam orta məktəbində keçirilən səyyar qəbulda sakinlər digər məsələlərlə yanaşı avtobus dayanacaqlarının olmamasından gileylənmişdilər. İndi şəhərin ayrı-ayrı yerlərindəki belə dayanacaqların sayı durmadan artır. Hamısı da səliqəli, müasir. Küçə və meydanlarda qoyulan səliqəli tullantı qutuları da sakinlər tərəfindən razılıqla qarşılanır.



**Şəhərin ayrı-ayrı yerlərində qurulan müasir dayanacaqlar sərnişinlərə rahatlıq gətirir**

Xol zonası rayonun ən böyük yaşayış məntəqələrindəndir. Burada da sakinləri narahat edən problemlər az deyildi. Ərazidə suyun çatışmaması, təbii qazın olmaması, Neftçala-Xolqaraqaşlı yolunun bərbad vəziyyətə düşməsi ilə əlaqədar rayon rəhbərilə keçirilən səyyar qəbullarda dəfələrlə məsələlər qaldırılmış, müraciətlər olunmuşdu. Artıq bu məsələlər də öz müsbət həllini tapmışdır. Dövlətə, dövlət başçısına olunan minnətdarlıqlar da bununla əlaqədardır. Problemlərin həlli üçün rayon rəhbərliyi də səyini əsirgəməmiş, əməli köməkliyini göstərmişdir.

Rayonun Şirvanlı qəsəbəsinə asfalt yolun, Mirqurbanlı yaşayış məntəqəsinə təbii qazın çəkilməsi də sonsuz razılıq hissi doğurmuşdur. Rayon rəhbərliyilə keçirilən səyyar qəbulda olunan digər müraciətlərin həlli istiqamətində də ardıcıl iş gedir, lazımi tədbirlər görülür.

Qədimkənd kənd tam orta məktəbində əsaslı təmirə ciddi ehtiyacın olduğu, II Mayak kəndinə gedən yolun narahatlıq doğurması, sakinlərin işlə yetərincə təmin olunmaması, Mirzəqurbanlı kəndində təbii qazın, telefon xəttinin olmaması da rayon rəhbəri ilə həmin ərazilərdə keçirilən səyyar qəbullarda qaldırılan problemlərdir. Rayon təhsil şöbəsinin müdiri Əjdər Kərimovun, 50 saylı "Yol İstismar" MMC-nin direktoru Füzuli Babayevin, "Yusifoğlu" kooperativinin rəhbəri Əbülfəz Ağayevin, Salyan Regional Qaz İstismar İdarəsinin rəis müavini Mehrac Gözəlovun, rayon telekommunikasiya qovşağının rəisi Zülfəli Muradovun sözlərindən aydın oldu ki, Qədimkənd kənd tam orta məktəbinin, II Mayak kəndinə gedən yolun əsaslı təmiri, Mirzəqurbanlı kəndinə təbii qazın, telefon xəttinin çekilişi gələn il həyata keçiriləcəkdir. Bununla əlaqədar lazimi hazırlıq işləri görülür. Bir neçə kənd sakininin "Yusifoğlu" kooperativində işlə təmin olunması onlarda böyük razılıq hissi doğurmuşdur.

Rayon rəhbərinin yerlərdə səyyar qəbulları davam edir.

**H.ƏSƏDOV**

# "Ölkəmizi tanıyaq" aksiyasının növbəti turu

Orta ümumtəhsil məktəblərinin 9-11-ci sinif şagirdlərinin iştirakı ilə "Ölkəmizi tanıyaq" devizi altında respublikamızın ayrı-ayrı bölgələrinə maarifləndirici tur-aksiyaların keçirilməsi artıq ənənə halını almışdır. Dövlətimizin başçısı cənab İlham Əliyevin tövsiyəsinə əsasən Prezident Administrasiyasının təşkilatçılığı ilə təşkil olunan bu layihənin əsas məqsədi şagirdləri ölkəmizin ayrı-ayrı bölgələrinin müasir həyatı, tarixi, mədəni irsi, adət və ənənələri, özünə məxsus xüsusiyyətləri ilə yaxından tanış etmək, ulu öndər Heydər Əliyevin qurub yaratdığı, Prezident İlham Əliyevin ardıcıl səyləri, müdrik siyasəti sayəsində gündən-günə inkişaf edərək abadlaşan şəhər və rayonlarımızı onlara daha yaxından tanınmaqdır.

Rayonumuzun şagirdləri də ölkəmizi onlara tanıdan bu tur-aksiyalarda fəal iştirak edir, bilik və məlumatlarını, dünyagörüşlərini durmadan genişləndirirlər. Noyabrın 17-dən reallaşan növbəti tədbir də onların ürəyindən oldu. Yola düşməmişdən əvvəl ulu öndərin adını daşıyan prospektdə yeni ağac tingləri əkən, yaşıllığa qulluq göstərən şagirdlərin Heydər Əliyev Mərkəzində keçirilən görüşdə iştirakı onlar üçün xüsusilə yaddaqalan idi. Rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyev iştirakçıları salamlayaraq ulu öndər Heydər Əliyevin qurub yaratdıqı müstəqil Azərbaycanın bu gün dünyada böyük nüfuz sahibi olduğunu diqqətə çatdırdı.





Qeyd etdi ki, ümummilli liderin yolunu layiqincə davam etdirən Prezident İlham Əliyevin ardıcıl səyləri, müdrik siyasəti nəticəsində Azərbaycan böyük sürətlə inkişaf edərək içtimai həyatımızın bütün sahələrində uğurlara nail olur, əldə olunan nailiyyətləri durmadan möhkəmləndirir. Gənc nəslə göstərilən böyük qayğı onların hərtərəfli inkişafı, müəyyən edilmiş hədəflərə çatmaları üçün əlverişli şərait yaradır.

Rayon rəhbəriliyilə keçirilən səmimi görüşdə gənclər də çıxış edərək onlar üçün yaradılan bu gözəl şəraitə görə Prezident İlham Əliyevə özlərinin səmimi minnətdarlıqlarını bildirdilər.

Noyabrın 18-də Neftçala şəhərində ümummilli lider Heydər Əliyevin adını daşıyan Mərkəzin qarşısındakı meydan xüsusilə izdihamlı idi. Rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyev, başçının içtimai-siyasi və humanitar məsələlər üzrə müavini Gültəkin xanım Sadıqova, rayon təhsil şöbəsinin müdiri Əjdər Kərimov və digər məsul şəxslər də burada idilər. Əvvəlcə şagirdlər rayon rəhbərliyi ilə birlikdə ulu öndər Heydər Əliyevin abidəsi önünə tər çiçəklər düzdülər. Meydana toplaşan valideynlər və müəllimlər yola düşəcək şagirdlərə özlərinin tapşırıq və tövsiyələrini verdikdən sonra onlar ayrılmış xüsusi avtobusa əyləşərək Gəncə-Şəmkir-Göygöl marşrutu istiqamətində yola düşdülər.

Rayonmuzun məktəbliləri səfərə hansı əhvali-ruhiyyə ilə yola düşmüşdülərsə, tur-aksiyadan qayıdanda ondan da yüksək ovqatda idilər. Çöhrələrindən sevinc yağırdı. Hiss olunurdu ki, səfər gözəl keçib, şagirdlər zəngin təəssüratla qayıdıblar. Qrupun rəhbəri, rayon icra hakimiyyəti başçısı aparatının işçisi Fərid Əhmədov aksiyanın növbəti turu barədə belə dedi:

— Gəzintilər çox maraqlı və unudulmaz oldu. Qədim Qala divarları, Gəncə tarix-diyarşunaslıq muzeyi, İmamzadə kompleksi, Comərd Qəssab türbəsi, Nizami Gəncəvi məqbərəsi, Nizami Gəncəvi adına mərkəz Gəncənin gəzməli, görməli yerləridir. Heydər Əliyev adına Milli Park, Heydər Əliyev Mərkəzi, Cavadxan məqbərəsi, Xan bulağı, Amfiteatr, Gəncə Avtomobil Zavodu və digər yerlərlə tanışlıq da şagirdlərdə çox zəngin təəssürat yaratdı, onların bilik və məlumatlarını xeyli dərəcədə zənginləşdirdi.

Şəmkirin də görməli yerləri az deyil. "Orta Əsr Şəmkir şəhəri", "Abidələr" parkı, Alman kilsəsi, "İstiqlal" parkı belə yerlərdəndir. Bununla yanaşı Heydər Əliyev Mərkəzinin, Gənclər Mərkəzinin, Bayraq Muzeyinin eksponatları da çox zəngindir. Göygöl rayonundakı Milli Parkın gözəlliklərindən doymaq olmurdu. Elə buna görə də şagirdlər bu parkı heyranlıqla seyr etdilər, buradakı Heydər Əliyev Mərkəzi, Bayraq Meydanı, Bayraq Muzeyi, Gənclər Mərkəzi, Alman kirxası, Tarix-diyarşunaslıq muzeyi, Alman evləri, sonuncu alman Viktor Klaynın ev muzeyi və digər tarixi yerlər də şagirdlərimizin yaddaşında dərin iz buraxdı. Bunu onların müəllimlərinə, bələdçilərə verdikləri müxtəlif məzmunlu suallar da aydın şəkildə göstərirdi. Aldıqları dolğun cavablar onların məlumatlarını daha da zənginləşdirirdi. Bizi sevindirən o oldu ki, şagirdlərimiz tur-aksiya boyunca keçirilən tədbirlərdə fəallıq göstərdilər, uğur qazandılar, bir-birindən maraqlı intellektual oyunların iştirakçısı oldular.



**Murad ƏHMƏDOV**

# 100 İlin böyük sevinci

Ötən ay ölkənin ədliyyə orqanlarının işçiləri də öz əziz bayramlarını təntənə ilə qeyd etdilər. Amma bu onların hər il noyabrın 22-də keçirdikləri peşə bayramı gününün sevincinə bənzəmirdi. Bu, ölkəmizdə ədliyyə orqanlarının yaradılmasının 100 illik tarixi yubileyinə həsr olunmuş təntənəli tədbir idi. Bununla əlaqədar respublikamızın elə rayonu, regionu olmadı ki, orada bir əsrlik bu tarixi yola nəzər salınmasın, bu yolun hansı çətinliklərdən keçdiyi diqqətə çatdırılmasın.



Tarixi yubileylə bağlı ən böyük tədbir isə respublikamızın paytaxtı Bakı şəhərində keçirildi. Noyabrın 22-də Ədliyyə Nazirliyinin rəhbər heyəti və kollektivi, hakimlər Fəxri xiyabana gələrək onlara bu əziz bayramı bəxş etmiş ümummilli lider Heydər Əliyevin abidəsi önünə əklil qoydular, buraya tər çiçəklər düzdülər.

Sonra onlar Azərbaycan ədliyyəsinin 100 illiyinə həsr olunmuş "Abşeron Mariott" mehmanxanasında keçirilən beynəlxalq konfransda iştirak etdilər. Tədbiri giriş nitqi ilə açan ədliyyə naziri Fikrət Məmmədov konfrans iştirakçılarını salamladı. Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasibətilə bütün ədliyyə və məhkəmə orqanlarını təbrik etdi, onlara yeni-yeni uğurlar arzuladı. Qeyd etdi ki, ədliyyə işçiləri Prezident İlham Əliyevin yubiley münasibətilə onların böyük bir qrupunu ölkənin orden və medalları, Fəxri adları və ali xüsusi rütbələrilə təltif etməsini, yubileylə bağlı onlara təbrik məktubu ünvanlamısını böyük minnətdarlıq hissilə qarşılamışlar.

Həmin gün nazirliyin bütün struktur qurumlarında olduğu kimi, rayonmuzun ədliyyə işçiləri də tarixi yubileyin böyük sevincini yaşadılar, maraqlı tədbirlərin iştirakçısı oldular. Tədbirin ilk mərhələsi ümummilli lider Heydər Əliyevin abidəsinin ziyarətindən başlandı. Havanın yağışlı, çiskinli olmasına baxmayaraq rayonun çoxsaylı ədliyyə işçiləri ulu öndərin adını daşıyan meydana toplaşmışdılar. Çöhrələrində sonsuz sevinc vardı. Əziz bayramları münasibətilə hamı onları ürəkdən təbrik edir, işlərində, fəaliyyətlərində yeni-yeni uğurlar, nailiyyətlər arzulayırdı.

Gülqoyma mərasimində rayon icra hakimiyyətinin başçısı İsmayıl Vəliyev, rayon məhkəməsinin sədri Xanlar Fərhadov, rayonun hüquq mühafizə orqanlarının rəhbərləri, içtimaiyyətin nümayəndələri iştirak edirdilər. Ümummilli lider Heydər Əliyevin abidəsi önünə tər çiçəklər düzüldü. Ədliyyə işçiləri ölkəmizdə müasir məhkəmə sisteminin formalaşmasında, bu mühüm sahənin inkişafında böyük xidmətləri olan ulu öndərə özlərinin dərin hörmət və ehtiramlarını bildirdilər.

Sonra tədbir rayon məhkəməsində davam etdirildi. Rayon məhkəməsinin hakimi Xanlar Fərhadov yubiley tədbirində keçilən 100 illik tarixi yola yenidən nəzər saldı. Əminliklə vurğuladı ki, rayonumuzun ədliyyə işçiləri ümummilli lider Heydər Əliyevin dövlətçilik amallarına bundan sonra da daim sadiq qalacaq, möhtərəm Prezidentimiz İlham Əliyevin qarşıya qoyduğu şərəfli vəzifələrin layiqincə yerinə yetirilməci üçün qanunun aliliyini həmişə əldə rəhbər tutacaqlar. Ona nail olmağa çalışacaqlar ki, rayon vətəndaşlarının hüquqları etibarlı şəkildə qorunsun, çıxarılan qərarlar ədalətli və obyektiv olsun.

**A.MİKAYILOV**

# Peşə bayramının fərəhi

Təbiət bizə bol-bol nemətlər bəxş etdiyi kimi, bəzən çətinliklər, fəlakətlər də gətirir. Yanğınlar, zəlzələlər, sellər, daşqınlar və digərləri belə hadisələrdəndir . Lazımi profilaktik tədbirlər görülməsə həmin hadisələr insanlara çox ciddi ziyan vurur, onları çıxılmaz vəziyyətdə qoyur. Prezident İlham Əliyevin 16 dekabr 2005-ci il tarixli sərəncamı ilə Fövqəladə Hallar Nazirliyinin yaradılması da məhz bununla bağlıdır.

Mülki müdafiə sahəsində dövlət siyasətini həyata keçirən ayrı-ayrı orqanların fəaliyyətini əlaqələndirən bu qurumun üzərinə çox mühüm və təxirəsalınmaz vəzifələr düşür. Bu vəzifələri vaxtında yerinə yetirmək, fövqəladə vəziyyətlərdə düzgün hərəkət etmək, qarşıya qoyulan çətin məqsədə nail olmaq heç də asan olmur. Bunun üçün insandan böyük fəallıq, çeviklik, cəsarət, hünər və digər bu kimi yüksək keyfiyyətlər tələb olunur. Belə keyfiyyətləri özündə tərbiyə edə bilməyən şəxs yəqin ki, bu sahədə lazımi uğur qazanmaz, üzərinə düşən vəzifəni yüksək səviyyədə, peşəkarlıqla yerinə yetirməz. Bunu həyat dönə-dönə təsdiqləyib. Nazirliyin ayrı-ayrı qurumlarının, o cümlədən yanğın təhlükəsizliyinin əməkdaşları ən çətin anlarda, fövqəladə vəziyyətlərdə həyatlarını təhlükəyə ataraq qeyri-adi hərəkətlər nümayiş etdirmiş, kimisə, nəyisə xilas etmişlər.

Uzun illər respublika Daxili İşlər Nazirliyinin tərkibində fəaliyyət göstərmiş rayon dövlət yanğından mühafizə hissəsi Fövqəladə Hallar Nazirliyi yaradıldıqdan sonra bu qurumun tərkibinə verildiyindən öz fəaliyyətini burada davam etdirmişdir. Elə buna görə Fövqəladə Hallar Nazirliyi İşçilərinin Peşə Bayramı Günündə hissənin əməkdaşları da xoş hisslər, duyğular keçirir, əlamətdar günün böyük sevincini, fərəhini yaşayırlar.

Bu il də belə oldu. Əməkdaşlar yenə sevinc içində idilər. İlk öncə onlar ümummilli lider Heydər Əliyevin abidəsi önünə gələrək buraya tər çiçəklər düzdülər, ulu öndərə özlərinin dərin hörmət və ehtiramlarını bildirdilər.

Gülqoyma mərasimində rayonun ayrı-ayrı təşkilatlarının nümayəndələri də iştirak edirdilər. Onlar hissə əməkdaşlarını ürəkdən təbrik edərək onlara möhkəm can sağlığı və təhlükəsiz həyat arzuladılar.

Mərasim başa çatdıqdan sonra bayram tədbiri hissənin inzibati binasında davam etdirildi. Hissənin rəisi, daxili xidmət mayoru Anar Salahov qurumun keçdiyi tarixi yola hərtərəfli nəzər saldı, əldə olunan nailiyyətləri diqqətə çatdırdı, qarşıda duran vəzifələrə geniş aydınlıq gətirdi. Sonra o, əməkdaşları bir daha təbrik edərək onlara işlərində uğurlar dilədi.



# Səhiyyə naziri Neftçalada

Dövlət başçısı cənab İlham Əliyevin tapşırığına əsasən respublika mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin regionlarda, rayonlarda səyyar qəbulları davam edir. Belə qəbulların əhəmiyyəti ondadır ki, vətəndaşları narahat edən problemlərin, müraciətlərin bir çoxu yerindəcə həllini tapır, həlli vaxt tələb edən müraciətlər, məsələlər isə nəzarətə götürülür, araşdırıldıqdan sonra lazımi tədbirlər görülür. Nəticədə insanlar bu və ya digər məsələnin, problemin həllindən ötrü Bakı şəhərinə getməyə, vəsait sərf etməyə ehtiyac duymurlar. Ayrı-ayrı nazirlərin, komitə sədrlərinin rayonumuzda keçirdikləri səyyar qəbullar da bu cəhətdən yaddaqalan olmuşdur.



Dekabrın 7-də növbəti səyyar qəbul səhiyyə naziri Oqtay Şirəliyevlə oldu. Neftçala Mərkəzi Xəstəxanasında keçirilən bu qəbulda rayon sakinləri ilə birlikdə Salyan və Biləsuvar rayonlarından, Şirvan şəhərindən gələn vətəndaşlar da iştirak edirdilər. Onların sağlamlıq məsələləri, işlə təminat və digər məsələlərlə bağlı müraciətləri diqqətlə dinlənildi. Bu məsələlərin bir çoxu elə yerindəcə həll edildi. Araşdırılması zəruri olan məsələlər isə qeydiyyata alınaraq həlli ilə bağlı nazirliyin ayrı-ayrı səlahiyyətli şəxslərinə konkret tapşırıqlar verildi.

Nazirliyin səlahiyyətlərinə aid olmayan məsələlər də diqqətdən kənarda qalmadı. Onlar da aidiyyəti üzrə çatdırılması üçün qeydiyyata alınaraq nəzarətə götürüldü.

Qəbulda iştirak edən vətəndaşlar onlar üçün yaradılan bu şəraitə, göstərilən qayğı və diqqətə görə Prezident İlham Əliyevə səmimi minnətdarlıqlarını bildirdilər.



# "VƏTƏNİN MÜDAFİƏSİNƏ HAZIRAM"

Torpaqlarımızın iyirmi faizinin işğal altında olduğu bir vaxtda ordumuzun gücləndirilməsi ilə yanaşı hərbi-vətənpərvərlik tərbiyəsinə diqqətin artırılması da çox mühüm əhəmiyyət kəsb edir. Bunu nəzərə alaraq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ölkə vətəndaşlarının hərbi-vətənpərvərlik tərbiyəsinin, yeniyetmə və gənclərdə vətəndaşlıq hisslərinin yüksəldilməsi, onların ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizəyə hazırlıq ruhunda tərbiyə edilməsi məqsədi ilə mütəmadi olaraq müxtəlif layihələr, tədbirlər, müsabiqələr təşkil edir. Bir neçə gün bundan qabaq SHXÇDX-nin Neftçala Rayon İcra Hakimiyyəti ilə birlikdə hazırladıqları "Vətənin müdafiəsinə hazıram" mövzusundakı kütləvi tədbir də bu məqsədə xidmət edirdi.







Heydər Əliyev Mərkəzində keçirilən tədbirə çoxlu sayda adam toplaşmışdı. Onların arasında yeniyetmə və gənclər xüsusilə çoxluq təşkil edirdilər.

Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başlayan tədbiri rayon icra hakimiyyəti başçısı aparatının şöbə müdiri, YAP rayon təşkilatının sədri Anar Cəfərov açaraq qonaqları salamladı, belə tədbirlərin yeniyetmə və gənclərin hərbi-vətənpərvərlik tərbiyəsində çox mühüm rol oynadığını diqqətə çatdırdı, bununla əlaqədar rayonumuzda görülən işlərdən danışdı.

Sonra söz SHXÇDX rayon şöbəsinin rəisi, polkovnik-leytenant Turan Əliyevə verildi. O da ordu quruculuğunda, gənclərin hərbi-vətənpərvərlik tərbiyəsinin gücləndirilməsində belə tədbirlərin önəmini vurğuladı. Qeyd etdi ki, bu kimi tədbirlərin təşkilinə gələcəkdə də ciddi diqqət yetiriləcək, gənclərin ordu sıralarına hazırlanması istiqamətində ardıcıl iş aparılacaqdır.

SHXÇDX-nin şöbə rəisi, polkovnik Niyaz Məmmədovun, respublika Əfqanıstan Veteranları İctimai Birliyinin sədri Məhəmməd Vəliyevin, Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının üzvü, Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə İctimai Birliyinin sədri Emin Həsənlinin respublikamızda gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi ilə bağlı təşkil olunmuş tədbirlərə, layihələrə geniş aydınlıq gətirən çıxışları da maraqla dinlənildi.

Sonra mükafatlandırma mərasimi oldu. Tədbirin təşkilindəki yüksək təşkilatçılığına və verdiyi dəstəyə görə SHXÇDX-nin təşəkkür planketi rayon icra hakimiyyəti başçısı aparatının şöbə müdiri Anar Cəfərova təqdim edildi. "Hərbi-vətənpərvərlik tərbiyəsində xidmətlərinə görə" mükafatlar isə şəhid Rövşən Ağamalıyevin atası Baloğlan Ağamalıyevə, Qarabağ müharibəsi əlili Faiq Abdiyevə təqdim olundu. Şəhər 4 saylı tam orta məktəbinin hərbi rəhbəri, ehtiyatda olan baş leytenant İdris Xammədov, həmin məktəbin 11-ci sinif şagirdi Əlihüseyn Əliyev "Gənclərin çağırışaqədərki hazırlığı fənnində nailiyyətlərə görə" mükafatlarına layiq görüldülər. Mükafatları sahiblərinə SHXÇDX-nin şöbə rəisi, polkovnik Niyaz Məmmədov və rayon səfərbərlik və hərbi xidmətə çağırış şöbəsinin rəisi Turan Əliyev təqdim etdilər.

Tədbirin bədii hissəsi də unudulmaz, yaddaqalan oldu. Şəhər 1 və 4 saylı tam orta, Aşağı Qaramanlı kənd ümumi orta məktəbləri şagirdlərinin ifasında səslənən ədəbi-bədii kompozisiyalar alqışlarla qarşılandı. Hərbi mahnıların və marşların bənzərsiz ifaçısı Şəmistan Əlizamanlının məktəblilərlə birlikdəki çıxışlarını da həyəcansız dinləmək olmurdu. Onun ecazkar səsi bu dəfə də könülləri fəth etdi. Oxuduğu mahnılarla əsir yurd yerlərimizə tezliklə qayıdacağımıza ümid yaratdı.

**Q.PİRƏLİYEV**

# Ekologiyanın qorunması, sağlamlığımızın qorunmasıdır

## BUNLARDAN NƏTİCƏ ÇIXARMALIYIQ

Hər səhifəsini maraqla oxuduğum, hər sayını həvəslə gözlədiyim "Gündoğar"ın 10 oktyabr 2018-ci il tarixli sayındakı "Neftçalanı sevmək lazımdır, sözdə yox, əməldə" sərlövhəli yazı məzmunu və aktuallığı ilə diqqətimi xüsusilə cəlb etdi. Həmin səhifədəki "Sözümüz sizədir, əziz neftçalalılar" sərlövhəli yazı da eyni mövzuya həsr olunmuşdu. Bu yazılarda müasir dövrümüzün ağrılı problemlərindən olan təbiətə laqeyd münasibət, ekoloji tarazlığın pozulması məsələsinə toxunulurdu. Çoxları bu fikirlə razılaşar ki, bu gün ətraf mühitin korlanması, suyun, torpağın, havanın çirkləndirilməsi, yaşıllıqların lazımınca qorunmaması, digər bu kimi neqativ hallar baş alıb gedir, ətraf mühit, ekologiyamız lazımınca qorunmur. Xəzərsahili ərazilərdəki acınacaqlı vəziyyət, Kür boyu zonaların antisanitar durumu, bir çox sənaye müəssisələrinin zərərli tullantılarının ətraf mühiti, su mənbələrini çirkləndirməsi ciddi narahatlıqlar doğurur. Buraya ayrı-ayrı yaşayış məntəqələrində, bazar-dükanların ətraflarında kök salan zibillikləri də əlavə etsək onda xoşagəlməz mənzərə daha da genişlənər. Bütün bunlar isə həyəcan doğurur, bizi dərindən düşünməyə vadar edir.

Sadalanan problemlərin həll edilib aradan qaldırılmasından ötrü, əlbəttə ki, müəyyən təşkilatlar müəyyən işlər görür, müəyyən tədbirlər həyata keçirirlər. Ancaq bu işlər, tədbirlər yetərincə deyil. Çox vaxt sadalanan qüsurları doğuran səbəblər vaxtında aşkarlanaraq aradan qaldırılmaq əvəzinə, onların həlli aylarla yubadılır, axırda da tamam yaddan çıxarılır, unudulur. Belə səbəblərə görə yağışlı havalarda şəhərin ayrı-ayrı küçələri ilə hərəkət etmək, müəyyən obyektlərə yaxınlaşmaq çətinləşir. Yol kənarında, bazar-dükan ətrafında, yaşayış binalarının yan-yörəsində, daldabucaq yerlərdə yığılıb qalan tullantılar ətraf mühitə, ekologiyaya ziyan vurmaqla yanaşı şəhərin gözəlliyinə də xələl gətirir. Bu kimi hallar keçici xəstəliklərin yaranıb yayılmasına da əlverişli şərait yaradır.

Rayon mərkəzində, qəsəbə və kəndlərdə hər il nə qədər ağac, gül kolu əkilir, yaşıllıq sahələri salınır, ancaq onlara lazımi diqqət və qayğı göstərilmir, bu ağaclar və gül kolları isti havalarda suvarılmır. Nəticədə yaşıl ağaclar yanaraq quruyur, məhv olur. Bütün bunlardan nəticə çıxarmaq, vacib problemləri həll edib aradan qaldırmaq lazımdır.

Bir məsələyə də toxunmaq istəyirəm. Bu da vətəndaş məsuliyyətidir. Bütün sadalanan nöqsanlar bizim gözümüzün qabağında baş verir, təzə əkilən ağaclar gözümüzün qabağında susuzluqdan quruyub gedir, ancaq əksəriyyətimiz o ağacların, gül kollarının yanından biganəliklə ötüb keçirik, belə məsələlərə laqeyd yanaşırıq. Gərək belə olmasın. İlin münasib fəsillərində hərə bir ağacın, bir gül kolunun suvarılmasını öhdəsinə götürsün. Belə olsa, hamımız üçün faydalı olan bu canlı varlıqlar gözümüzün qabağında məhv olub getməz.

Bir ağacın kəsilməsi, yaşıl bir budağın sındırılması da təbiətə qarşı qəsddir. Gərəksiz bir əşyanın yerə atılması da ətraf mühitə vurulan zərbədir. Yaxınlıqdakı zibil yeşiklərini görə-görə siqaret qutusunu səkinin kənarına atmağın, içərisi tullantı ilə dolu sellafonu ağac dibinə tullamağın adı nədir?! Dayanacaqlarda minik gözləyən adamların ovuc-ovuc tum qabıqları ilə ətrafı zibilləməsinə nə ad vermək olar?! Belə mədəniyyətsizlik, ətraf mühitə laqeyd münasibət yolverilməzdir. Sağlam yaşayışı təmin etməkdən ötrü bu gün hər kəs ətraf mühitin çirkləndirilməsinə, ekoloji tarazlığın pozulmasına qarşı var qüvvə ilə mübarizə aparmalı, təmizliyə ciddi riayət etməlidir. Bu iş günümüzün ən aktual məsələlərindən biri kimi hamımızı ciddi düşündürməlidir.

**Zaur ƏRMUĞAN,**
**şair-publisist**

# Pambıq yığılmaqla yanaşı, gələn ilin bol məhsulunun əsası da indidən qoyulur

Deyirlər, yazırlar və biz də neçə illər yazmışdıq, demişdik ki, pambıq zərbəçi cəbhədir. Burada yubanmaq, gecikmək olmaz. Pambıq yığımı dövründə nəinki ay, gün, hətta saat, dəqiqə belə qiymətlidir. Gərək vaxtdan səmərəli istifadə edəsən, bütün qüvvələri səfərbərliyə alasan ki, itkiyə yol verməyəsən, zəhmətin hədər getməsin. Həyat bunu bir daha təsdiqlədi. Ötən ilin payızındakı aramsız yağışları yəqin ki, heç kim unutmayıb. Hamı o narahat günləri yaxşı xatırlayır. Şükür ki, bu il məhsul toplanışında belə gərginlik yaşanmadı. Arabir yağışlar yağsa da, əlverişli günlər az olmadı. Pambıqçılarımız yaranmış imkandan səmərəli istifadə edərək yığımı sürətlə davam etdirdilər. Həm əllə, həm maşınla yığım yaxşı təşkil olunmuşdu. Elə buna görə də böyük zəhmət bahasına yetişdirilmiş qiymətli məhsul toplanıldı, itkiyə yol verilmədi. Aşağı Surra, Aşağı Qaramanlı, Yuxarı Qaramanlı, Xolqarabucaq, Xolqaraqaşlı və digər inzibati ərazilərdə məhsul yığımı xüsusilə yaxşı təşkil olunmuşdu. Ən yüksək məhsuldarlıq da məhz bu ərazilərdədir. Həmin ərazilərdə qüvvələrdən daha səmərəli istifadə olunmuşdu, becərmə tədbirlərində olduğu kimi, yığımda da mütəşəkkillik nümunələri göstərilmişdir.



Havaların getdikcə soyumasına baxmayaraq pambıq tarlalarında yığım davam edir. Kənd əməkçiləri itkiyə yol verməmək üçün qüvvə və imkandan yenə səmərəli istifadə etməyə səy göstərirlər. Bununla yanaşı onlar gələn ilin bol məhsulu üçün də indidən düşünür, lazımi tədbirlər həyata keçirirlər. Rayon dövlət aqrar inkişaf mərkəzinin direktor əvəzi Vidadi Bağırov bununla əlaqədar belə dedi:

— Artıq il başa çatır. Kənd təsərrüfatının bütün sahələrində müəyyən uğurlara nail olmuşuq. Bitkiçilik, heyvandarlıq məhsulları istehsalı əvvəlki illə müqayisədə artıb. Bu bizi sevindirsə də arxayınlaşdırmır. Pambıq istehsalında da irəliləyiş var. Sahələrdən toplanan məhsulun ümumi həcmi on min tona yaxındır. Hər hektarın məhsuldarlığı da ötən ildəkindən xeyli yüksəlib. Yığımı davam etdirməklə yanaşı gələn ilin bol məhsuluna da indidən hazırlıq görürük. Torpaqların keyfiyyətlə, aqrotexniki tələblər əsasında şumlanması, şum altına lazımi miqdarda mineral və üzvi gübrələrin verilməsi, sahələrin zərərli duzlardan yuyularaq təmizlənməsi, əkiləcək yerlərin yaxşı arat edilməsi və digər tədbirlərin həyata keçrilməsi indi qarşımızda duran əsas vəzifələrdir. Bunun üçün kifayət qədər texnikamız, mütəxəssislərimiz var. İndi az məsrəflə sahələrdən daha yüksək məhsul əldə etmək zamanın ən böyük, ən başlıca tələbidir. Bunun üçün bütün işlərdə keyyfiyəti ön plana çəkmək, aqrotexnika elminin son nailiyyətlərindən bacarıqla istifadə etmək lazımdır. Çalışacağıq ki, bundan sonra öz işlərimizi bu prinsiplər üzərində quraq, gələn ilin bol pambığı və digər kənd təsərrüfatı məhsulları üçün indidən real zəmin yaradaq. Belə olmasa həyatla ayaqlaşmaq, məhsuldarlığı yüksəltmək, istənilən nəticəni əldə etmək mümkün olmayacaq.

# Sahə əməkçilərinin yanında

Həmişə olduğu kimi Qara o gün də tezdən durmuşdu yuxudan. İstəsəydi də yata bilməzdi. Buna adət etmişdi. Çöl adamı kimi günəşi hər gün tarlada qarşılayır. Sahə rəisi olduğundan üzərinə düşən məsuliyyətini də dərindən anlayırdı. Ona görə əraziyə həmişə birinci gəlirdi, pambıqçılarla burada salamlaşırdı. Son vaxtlar bu gəlirli sahəyə diqqətin artması, dövlət qayğısı onun da qəlbində xoş arzular oyatmışdı. Aşağı Qaramanlı inzibati ərazisindəki torpaqların necə məhsuldar olduğunu yaxşı bilirdi. Zəhmət çəksən borclu qalmazdı, öz barı, bəhrəsi ilə sevindirərdi səni. Ötən il müəyyən uğura nail olsalar da, bu il daha yüksək nəticələr uğrunda mübarizə aparmışdılar. Torpağa çiyid düşən gündən gecə-gündüz sahələrdə olmuşdular, əl-ələ verərək çalışmışdılar, mütəşəkkillik göstərmişdilər. Fermerlərdən, torpaq mülkiyyətçilərindən köməyni əsirgəməmişdi Qara, onlara daim dəyərli, faydalı məsləhətlərini vermişdi. Söz düşəndə ərazidə pambıq əkib becərən Müseyib Abdiyevin, Arif Tağıyevin, Elşad Bağırovun, Zeynalabdin Abbasovun, Əziz Əliyevin, Əliqulu Tağıyevin və neçə-neçə digər qabaqcıl fermerlərin adlarını hörmətlə çəkmişdi. Bildirmişdi ki, dövlət başçısının pambıqçılığın inkişafına göstərdiyi diqqət və qayğısından ruhlanan bu insanlar bol məhsul yetişdirmək üçün var qüvvə ilə çalışıblar, üzərlərinə düşən vəzifələrin öhtəsindən layiqincə gəliblər. Nəticələr də məhz buna görə sevindiricidir, ürəkaçandır.



İş elə gətirdi biz MKT İK MMC-nin Neftçala filialının sahə rəisi Qara Sahib oğlu Abbasovla noyabrın sonlarında, elə tarlada görüşdük. Günəşli bir payız səhəri idi. Hava nisbətən soyuq olsa da, pambıqçıların əlləri işdən soyumamışdı, yığımı sürətlə davam etdirirdilər. İnzibati ərazi dairəsi üzrə nümayəndə əvəzi Elçin Mehdiyev, sahə rəisi Qara Abbasov da onların yanında idilər. Salamlaşıb görüşdük, hal-əhval tutduq. Sevincini gizlədə bilməyən sahə rəisi dedi:

— Dünənə qədər passiv həyat tərzi keçirən kəndlərimizi, kənd adamlarını indi tanımaq olmur. Pambıqçılığın inkişafına start verildikdən sonra hər tərəfdə bir canlanma, işgüzarlıq duyulur. Adamlar həvəslə pambıq əkib becərirlər. Kənddə məşğulluq xeyli dərəcədə artıb. Mexanizatorlar, suçular yaxşı pul qazanırlar. Elə qızlarımızın, qadınlarımızın gəlirləri də az deyil. Becərmədə də, məhsul yığımında da onlar həmişə ön cərgədə olublar. Əl-ələ verərək bu il ərazidə əkdiyimiz 252 hektar sahədən 800 tondan artıq pambıq istehsal etməyə nail olmuşuq. Ötən illə müqayisədə bu daha yüksək göstəricidir. Hər hektarın məhsuldarlığı 30 sentnerdən çoxdur. Bu bizi sevindirsə də, arxayınlaşdırmır. Ona görə yığımı davam etdiririk. Bütün uğurlara filialın, filial rəhbərliyinin köməyi sayəsində nail olmuşuq. Təcrübüli təsərrüfatçı Bahəddin Leysanovun qayğısını hər addımda üzərimizdə hiss edirik, ondan çox şey öyrənirik. Dəyərli məsləhətləri həmişə faydalı olur, köməyimizə çatır. Texnika sarıdan heç bir çətinliyimiz yoxdur. Lazım olan avadanlıqlarla, materiallarla, gübrələrlə vaxtlı-vaxtında təmin olunuruq. Şübhəsiz belə şəraitdə yaxşı işləməmək mümkün deyil. Kənd adamına yaratdığı belə gözəl, əlverişli şəraitə görə möhtərəm Prezidentimiz cənab İlham Əliyevə ürəkdən minnətdarıq. Çalışırıq bu qayğıya biz də əməli işimizlə cavab verək.

Qara Sabir oğlu Abbasovun ömür yolu, tərcümeyi-halı ilə tanışlıqdan sonra onun belə məsul vəzifəyə təyin olunmasının səbəbi bizim üçün də aydınlaşdı. 1981-ci ildən Neftçala Pambıqtəmizləmə Zavodunda çalışan, bu qiymətli məhsulun emalı ilə məşğul olan Qara sonra əmək yolunu o vaxtın təcrübə məktəbi sayılan Nuruş Əliyev adına kolxozda davam etdirib, burada pambıqçılıq briqadasına rəhbərlik edib. Hər iki təcrübəli, sayılıb seçilən təsərüfat rəhbərindən öyrəndikləri, görübgötürdükləri bu gün Qaranın köməyinə çatır, onu çətinliklərdən xilas edir, yoluna işıq salır.

İli uğurlu göstəricilərlə başa vuran ərazidəki fermerlərin, torpaq mülkiyyətçilərinin gələn il üçün vəzifələri daha böyükdür. Pambıq əkiləcək sahələri genişləndirmək, məhsuldarlığı yüksəltmək onları sabaha səsləyən arzulardır. Qara Abbasov dedi:

— Əzizağa Məcidov, Ruslan Əsgərov kimi peşəkar mexanizatorların, Əsgər Tağıyev, Əlizadə Cavadov kimi qabaqcıl suçuların, Validə İsgəndərova, Gülbəniz Qasımova, Səlimə İmanova, İradə Abbasova, Məsmə Tağıyeva, Dilarə Abbasova, Dostuxanım Tağıyeva kimi hünərvər qızlarımızın, qadınlarımızın cəsarətini görəndən sonra inanıram ki, gələn il biz daha böyük uğurlara imza atacağıq. Dövlət qayğısından güc alan fermerlərimiz, torpaq mülkiyyətçilərimiz gələn ilin qayğıları ilə yaşayırlar. İnanıram ki, biz buna nail olacağıq.



Biz də sizə yeni uğurlar, qələbələr arzulayırıq, dostlar! Arzu edirik səsiniz, sorağınız beləcə yüksəkdən gəlsin.

**M.ƏHMƏDOV**

# Taxıl əkini davam edir

Pambıqçılığın genişləndirilməsi əhalinin maddi durumunun, sosial vəziyyətinin yaxşılaşmasına müsbət təsir göstərsə də, taxıl istehsalının artırılması da daim diqqət mərkəzindədir. Bu heç də təsadüfi deyil. Taxıl ən qiymətli ərzağımız olan çörəkdir. Çörək bol olanda isə qollarımıza güc, ürəklərimizə təpər gəlir. Ona görə bütün dünyada olduğu kimi ölkəmizdə də taxılın məhsuldarlığının artırılması, keyfiyyətinin yaxşılaşdırılması daim önda olan məsələdir. Son illər bu mühüm sahəyə dövlətin qayğısının artırılması, taxıl istehsalçılarına, xüsusilə buğda əkənlərə əlavə subsidiyaların verilməsi fermerləri daha yaxşı işləməyə, məhsul istehsalını hər vasitə ilə artırmağa həvəsləndirir.

Kənd əkinçiləri cari ilin bol məhsulu üçün keçən ilin payızında 51 min hektardan artıq sahəyə toxum səpmişdilər. Əkin zamanı təcrübədə özünü doğrultmuş "Qarabağ-22", "Baharlı" arpa, "Qaraqılçıq", "Taleh-38" buğda sortlarının toxumlarına daha çox üstünlük verilmişdi. Becərmə zamanı aqrotexniki tədbirlərə ciddi əməl olunduğundan çəkilən zəhmət hədər getməmişdi, sahələrdə bol məhsul yetişdirilmişdi. Texnikanın imkanlarından və digər vasitələrdən səmərəli istifadə edən fermerlər məhsul toplanışında da mütəşəkkillik göstərmişdilər. Buna görə də biçin rayonda uğurla başa çatdırılmış, zəmilərdən 121 min tondan artıq taxıl istehsal olunmuş, hər hektarın məhsuldarlığı 23,7 sentner olmuşdur.

Kənd əməkçiləri gələn ilin bol taxılının əsasını da indidən qoyurlar. Bunun üçün tələb olunan bütün tədbirlər vaxtlı-vaxtında, aqrotexniki qaydalar əsasında yerinə yetirilmişdi. Torpaq əkinə yaxşı hazırlandığından səpin də yubanmamışdır. Neçə vaxtdır mexanizatorlar sahələrdə mütəşəkkilliklə çalışırlar. İndiyə kimi 41 min hektardan çox sahəyə toxum səpilmişdir. Bunun 34 min hektardan artığı arpa, 6 min 700 hektardan çoxu isə buğda sahələridir. Kənd əməkçiləri səpində olduğu kimi, becərmə işlərini də aqrotexniki qaydada aparmaqla gələn il zəmilərdən daha yüksək məhsul əldə etmək əzmindədirlər.

# GÜNDOĞAR

№ 37-38 (6699) 18 dekabr 2018-ci il

SON SƏHİFƏ


# YENİ İL: ADƏTLƏR, ƏNƏNƏLƏR, İNANCLAR, ATRİBUTLAR...

**Qarşıdan böyük bir maraqla gözlədiyimiz əziz bayramlar — Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il gəlir. Hər şeydən əvvəl hər birinizi bu əziz bayramlar, əlamətdar günlər münasibətilə ürəkdən təbrik edir, hamınıza uzun ömür, möhkəm can sağlığı, səadət və xoşbəxtlik arzulayırıq.**

**Ulu öndər Heydər Əliyevin ötən əsrin 90-cı illərinin əvvəllərində böyük uzaqgörənliklə 31 dekabrın həm də Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd olunması barədə təşəbbüs irəli sürməsi, bu günün həm də həmrəylik günümüz sayılması Yeni ilə olan həvəsimizi və marağımızı daha da artırıb. 31 dekabr biz azərbaycanlılar üçün ikiqat bayramdır.**

**Bəs yeni il nə deməkdir, o nə vaxt yaranıb, nə vaxtdan təntənə ilə qeyd olunmağı başlayıb, hansı xalqlar, millətlər bu bayramı necə qarşılayırlar, yeni ilin inancları, atributları hansılardır?.. Aşağıda təqdim etdiyimiz yazılarda bu və digər suallara müxtəsər cavablar tapa bilərsiniz**

# Bayram libaslı Neftçalamız

İl ərzində neçə-neçə bayramın, əlamətdar və tarixi günün sevincini yaşamışıq, bir-birindən gözəl, yaddaqalan tədbirlərin iştirakçısı olmuşuq. İndi bütün xalqımız kimi, rayonumuzun sakinlərinin də üzü yeni ilə sarıdır. Hər birimizi birliyə çağıran Dünya Azərbaycanlılarının Həmrəylik Gününü qarşılamağa, qeyd etməyə hazırlaşırıq.

Yeni ilin gəlişi həmişə böyük sevincdir, sonsuz fərəhdir insanlar üçün. Onlar təzə ilin yolunu həmişə intizarla gözləyirlər. Köhnə il nə qədər əlamətdar, unudulmaz olsa da, insanların yeni ildən gözləntiləri çox olur. İnanırlar ki, yeni arzularına, yeni ümidlərinə məhz bu ildə çatacaqlar. Belə sevincli, ümidli bir vaxtda, köhnə ilin son günündə Dünya Azərbaycanlılarının Həmrəylik Gününün qeyd edilməsi sevinc üstünə sevinc gətirir, 31 dekabr insanların yaddaşında, hafizəsində özünə məxsus iz qoyur, həmişə xatırlanır, yad olunur.

Son illər Yeni il şənliklərinin keçirildiyi ünvan da dəyişilməz olaraq qalır. Milli Qəhrəman Xanoğlan Məmmədovun adını daşıyan Neftçala Mədəniyyət və İncəsənət Mərkəzinin qarşısındakı meydan doğmalaşıb rayon sakinləri üçün. Bu il də al-əlvan bəzədilmiş yolka təkcə uşaqların deyil, elə böyüklərin də sevimli yeri olacaq. Təkcə uşaqlar deyil, elə böyüklər də uzun ayrılıqdan sonra Neftçalaya qonaq gələn Şaxta baba və Qar qızla əylənməkdən, şəkil çəkdirməkdən zövq alacaqlar. Əvvəlki illərdə çəkilən belə şəkillər həmin anları özündə yaşatdığından onlara baxanda insanlar sanki keçmiş illərin, tədbirlərin sevincini yenidən yaşayırlar.



Bayramı musiqisiz, nəğməsiz təsəvvür etmək mümkün deyil. Belə əziz günlərdə özlərinin həmişə yeni proqramları ilə çıxış edən rayonumuzun musiqi kollektivləri, yəqin bu ilki bayrama da əliboş gəlməyəcəklər. Neçə vaxtdan bəri aparılan məşqlər, hazırlıqlar da məhz bununla əlaqədardır. Onların hazırladıqları musiqi töhfələri hamının ürəyindən olacaqdır. Bağçalarda keçiriləcək şirin bayram səhərciklərinin də öz yeri olacaq. Həmişə olduğu kimi balacalar bu əlvan tədbirlərdə də fəal iştirak edəcəklər. Bu kollektivlərdə çalışanların bununla bağlı çox maraqlı fikirləri vardır. Yeni ilin gəlişinə həsr olunacaq bu səhərciklər uşaqlara bol-bol sevinc, fərəh bəxş edəcəkdir. Şaxta baba ilə Qar qızın onlara qonaq gəlməsi onsuz da şən olan əhvali-ruhiyyəni daha da yüksəldəcəkdir.

Bəli, bütün ölkəmiz kimi Neftçala da özünün yeni ilini qarşılamağa hazırlaşır. Hər tərəfdə xoş bayram ab-havası yaşanır. İnsanlar sevinc içindədirlər. Dövlətimiz, dövlət başçımız xalqımızın rifahının yüksəldilməsi, insanların güzəranının yaxşılaşdırılması üçün bir-birindən təsirli tədbirlər görür. Rayonumuza gələnlər bir də gəlmək istəyirlər. Ona görə ki, Neftçala əvvəlki Neftçala deyil. İndi onun gəzməli, görməli yerləri daha çoxdur. Sakinlər qurulanları, yaradılanları əziz qonaqlarına sevinclə, fərəhlə təqdim edirlər, bunlardan qürur duyurlar.

Hələ bunlar nadir ki?! Daha uğurlu günlərin, illərin hələ qabaqdadır, əziz, doğma Neftçala. 2019-nu da xoş ovqatla qarşıla, sevin, fərəhlən. Qoy yeni il sənə də, sənin əməksevər, dövlətinə, dövlətçiliyinə sadiq sakinlərinə də bol-bol sevinc, ruzi-bərəkət, bir-birindən xoş müjdələr gətirsin. Yeni iliniz mübarək, əziz neftçalalılar!

**"GÜNDOĞAR"**

# Tarixə ötəri bir baxış

Yeni il bayramının azı 25 əsrlik tarixi var. Bəzi fərziyyələrə görə Yeni ili ilk dəfə qədim çinlilər qeyd ediblər. Digər mənbələrdə bu, qədim germanların və romalıların adı ilə bağlanır. Başqa bir mənbə isə ənənənin Mesopotamiyada yarandığını sübut etməyə çalışır.



Eramızdan əvvəl IV minilliyin sonlarına dair Şumer, Babilistan, Assuriya mədəni irsləri bizi heyrətləndirir. Tarixçi alimlərin fikrincə, Yeni ilin gəlişi ilk dəfə məhz həmin dövrdə yaranıb, bu yerlərdə bayram edilib. Martın axırında Dəclə və Fərat çaylarında suyun səviyyəsi artanda əkin-biçin işləri başlayarmış. İnsanlar yeni ilin gəlişini də elə o zaman qeyd edərmişlər. 12 gün ərzində təntənəli mərasimlər davam edərmiş. Xeyir tanrısı Mərdükün şər qüvvələr, ölüm üzərində hakimiyyəti başlayarmış. Bütün məhkəmə işləri, cəzalar təxirə salınarmış. Həmin dövrə aid gil kitabələrdən biri üzərində yazılmış mətnə görə, bu bayramda "qul ağaya çevrilərmiş". Yeri gəlmişkən, "Karnaval" sözü babil dilindən tərcümədə "gəmi-dəniz" deməkdir. Bu da Mərdükün Dəclədə üzməsilə bağlı ayinlərdən gələn ifadədir. Bayram günlərindən birində Mərdükün dəhşət ilahəsi, ilanbaşlı Tiamatla döyüşü səhnəsi canlandırılarmış. Nəticədə, əlbəttə ki, Mərdük qalib gələrmiş.

Babilistan əsirliyində olan yəhudilər Yeni il bayramı ənənəsini babillərdən öyrənərək yunanlara ötürüblər. Yunanlar vasitəsilə isə bu ənənə Qərbi Avropaya yayılıb.

Başqa bir mənbəyə görə, Qədim Şərqdə İran dövlətinin hələ yenicə yaranmağa başladığı dövrdə təqvimi var imiş. Onlar bilirmişlər ki, ilin bir günündə ən qısa gündüz ən uzun gecəylə növbələşir. Və bu gündən sonra həyatverici Günəş səmada daha çox görünməyə, təbiət oyanmağa başlayır, həyat cansıxıcı qış — ölüm üzərində qələbə çalır. Qədim hindlilər və farslar müasir təqvimlə dekabrın 22-nə təsadüf edən həmin günü "Günəş qapısı" adlandırarmışlar. Sonralar bu gün Günəş Tanrısı Mitranın doğum günü kimi qeyd edilməyə başlayır.

Möhtəşəm İran dövlətini diz çökdürən romalılar Mitranı da özününküləşdirirlər. Qədim Romada təqvim aylarındakı günlərin sayı müxtəlif idi. Hətta rüşvət verib onları dəyişdirmək də olardı. Lakin bir gün dəyişməz idi. Yeni il həmişə yanvarın 1-i gəlirdi və Mitranın doğum günü — İşığın Qaranlıq üzərində qələbəsi günü də bununla üst-üstə düşürdü.

Əsrlər keçdi. Roma dövləti rəsmi olaraq xristian dövləti kimi tanındı. Və məlum oldu ki, İsa peyğəmbərin doğum günü də elə dekabrın son günlərinə təsadüf edir. Beləcə, bu bayram həm yeni ilin gəlişini, həm həyatın ölüm üzərində qələbəsini, həm də Milad gününü özündə birləşdirmiş oldu.

Yeni ilin əsas atirbutları Şaxta baba, Qar qız və küknar ağacıdır. Bunların da hər birinin öz mənası, öz anlamı var.

# Yeni il Azərbaycanda

Adama elə gəlir ki, biz bu bayramı əsrlərdən bəri qeyd edirik. Amma əslində Yeni il Azərbaycanda SSRİ dövrlərindən qeyd edilməyə başlayıb. İndi isə 31 dekabr bizdə yalnız Yeni il deyil, həm də Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd olunur. Bir-birinə qarışan bu iki bayramı hamı yaddaqalan şəkildə qeyd etmək istəyir.

**Tükəzban HƏSƏNOVA,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

# Yeniqışlaq məktəbi müsabiqə qalibidir



BMT Uşaq Fondu (UNİCEF) Azərbaycan nümayəndəliyinin, Respublika Təhsil Nazirliyinin, İDEA İctimai Birliyinin və Təhsil Nazirliyi Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin birgə əməkdaşlığı çərçivəsində 2018-2019-cu illər tədris proqramı əsasında keçirilən "Eko səyahət" respublika uşaq qısa sənədli film müsabiqəsinə yekun vurulub.

Müsabiqə respublikada məktəblilərin ekoloji maarifləndirilməsi əhatəsini genişləndirmək, onların ətraf mühitin qorunmasında fəal iştirakını təmin etmək məqsədi daşımışdır. Bu film müsabiqəsinə rayonumuzdan yalnız A.Dadaşov adına Yeniqışlaq ümumi orta məktəbinin "Ekomaarifçilik" klubunun üzvləri qoşulmuşlar. Müsabiqənin ekoloqlardan, rejissorlardan, ssenaristlərdən və KİV nümayəndələrindən təşkil olunmuş münsiflər heyəti respublika məktəblərindən təşkilat komitəsinə təqdim edilmiş 171 qısa sənədli film sırasında Neftçala məktəblilərinin işini də yüksək dəyərləndirmişdir. A.Dadaşov adına Yeniqışlaq ümumi orta məktəbin "Ekomaarifçilik" klubunun ətraf mühitin çirklənməsi mövzusunda hazırladığı 3 dəqiqəlik qısa sənədli filmi fəxri 3-cü yerə layiq görülmüşdür.

Respublika Təhsil Nazirinin müavini Firudin Qurbanov və UNİSEF-in Azərbaycan nümayəndəliyinin rəhbəri Edvard Karvardin müsabiqədə 3-cü yer tutan şagirdlərə Fəxri diplom və qiymətli hədiyyə təqdim etmiş, onlarla birgə şəkil çəkdirmişlər.

# Həmyerlimizə Fəxri fərman təqdim olunub




Dünya Gənc Türk Yazarlar Birliyi yarandığı ilk gündən gənc istedadların üzə çıxarılmasında, yaradıcı insanlarla ədəbi əlaqələrin möhkəmləndirilməsində mühüm rol oynayıb, bu sahədəki çoxşaxəli fəaliyyəti ilə böyük nailiyyətlər əldə edib. Türk dünyası yazarlarını bir araya gətirən Dünya Gənc Türk Yazarlar Birliyinin yaranmasının 20 illiyi ilə bağlı yubiley mərasimi Bakıdakı Atatürk Mərkəzində reallaşıb. Türkdilli xalqların bir çox söz-sənət adamlarının qatıldığı bu mərasimdə həmyerlimiz, gənc şair Zaur Ərmuğan da iştirak edib. "Yaradıcılıq üfüqləri: Gənc yazarlar üçün toplantıların təşkili" adlı layihə çərçivəsində keçirilən tədbirlərdə fəal iştirakına görə Zaur Ərmuğan Dünya Gənc Türk Yazarlar Birliyinin Fəxri fərmanı ilə təltif edilib.

Bu münasibətlə gənc həmyerlimizi ürəkdən təbrik edir, ona yeni yaradıcılıq uğurları arzulayırıq.

**"GÜNDOĞAR"**

# Növbəti qanvermə aksiyası

İnsanların sağlamlığını qorumaq dövlətin ən mühüm vəzifələrindəndir. Bu heç də təsadüfi deyil. İnsan sağlam olanda normal çalışır, istədiyinə nail olur. Elə buna görə bu məsələ ölkəmizdə də daim diqqət mərkəzindədir. Bununla əlaqədar çox geniş tədbirlər həyata keçirilir. Sağlamlıq şəbəkələrinin ildən-ilə genişləndirilməsi, yenilərinin inşa olunması, əsaslı təmir edilməsi buna əyani misaldır. Bunu rayonumuzun timsalında da əyani şəkildə gördük. Neftçala mərkəzi xəstəxanasının tamamilə yenidən qurularaq rayon sakinlərinin istifadəsinə verilməsi onların sağlamlığı üçün əsl təminatdır.

Həyata keçirilən digər tədbirlər də insanların, xüsusilə xəstə insanların sağlamlığında az rol oynamır. Bu işdə qanvermə aksiyaları çox mühüm əhəmiyyət kəsb etdiyindən rayonumuzun sakinləri belə aksiyalarda həmişə həvəslə iştirak edirlər. Tədarük olunan qan hemofiliyalı və talasameyalı xəstələrin sağlamlığına xidmət edir. Xeyirxah neftçalalılar belə insanlardan köməklərini heç vaxt əsirgəmirlər.



Noyabrın axırlarında rayon mərkəzi xəstəxanasında keçirilən növbəti qanvermə aksiyası bunu bir daha əyani şəkildə göstərdi. Respublika səhiyyə nazirliyinin B.Eyvazov adına Hematologiya Transfiziologiya İnstitutu nəzdindəki Mərkəzi Qan Bankının əməkdaşları qan vermək üçün müraciət edən hər bir rayon vətəndaşına həssaslıqla yanaşırdılar. Onlar diqqətlə yoxlanılaraq sağlamlıqlarına tam əmin olduqdan sonra aksiyada iştirak etməyə icazə verilirdi. Mərkəzi Qan Bankının donorların tibbi müayinəsi şöbəsinin müdiri Rəhilə Babayeva dedi:

— Neftçalada gördüklərimizdən çöx sevindik, çoxlu yeniliklərin şahidi olduq. Rayon mərkəzi xəstəxanasının tamamilə yenidən qurularaq istifadəyə verilməsi xüsusilə əlamətdardır. Burada müayinə və müalicə üçün hər cür şərait yaradılmışdır. Aksiyanın belə gözəl şəraitdə təşkil olunması bizə də rahatlıq gətirdi. Xəstəxananın baş həkimi, respublikanın Əməkdar həkimi Telman Zahidovun təşkilatçılığından çox razı qaldıq. Neftçalalılar da sadə insanlardır. Məhz onların xeyirxahlığı sayəsində kifayət qədər qan ehtiyatı yarada bildik. Bu isə neçə-neçə insanın sağlamlığının bərpasına kömək deməkdir. Rayon rəhbərliyi başda olmaqla bütün neftçalalılara səmimi



minnətdarlığımızı bildirir, yeni ildə onlara yeni-yeni uğurlar arzulayırıq.

Sonda biz baş həkim Telman Zahidovla görüşdük. O da aksiyanın normal keçdiyini, rayon təhsil şöbəsinin, rayon polis şöbəsinin, rayon səfərbərilik və hərbi xidmətə çağırış şöbəsinin, rayon mühafizə polisinin, rayon yanğından mühafizə hissəsinin, rayon elektrik şəbəkəsinin, rayonun tibb işçilərinin və digər təşkilatların bu xeyirxah işdə fəal iştirak etdiklərini bildirdi. Qeyd etdi ki, növbəti qanvermə aksiyası da neftçalalıların xeyirxahlığına, humanizminə bir nümunədir.

# Rayonda demoqrafik vəziyyət

2018-ci il oktyabr ayının 1-i vəziyyətinə rayon əhalisi 87,8 min nəfər olmuş və il ərzində 544 nəfər, yaxud ötən illə müqayisədə əhalinin sayı 0,62 faiz artmışdır (ötən ilin müvafiq dövründə isə 0,60 faiz ). Əhalinin ümumi sayının 46,9 faizi şəhər, 53,1 faizi isə kənd sakinidir.

Rayon əhalisinin ümumi sayının 49,6 faizini kişilər, 50,4 faizini isə qadınlar təşkil edir. Hazırda hər 1000 kişiyə 1018 nəfər qadın düşür. Əhalinin ümumi sayından 0-14 yaşda olan uşaq və yeniyetmələrin xüsusi çəkisi 21,7 faiz, 15-64 yaşda olan əmək qabiliyyətli əhali 71,4 faiz və əmək qabiliyyətli yaşdan yuxarı olanlar isə 6,9 faiz təşkil edir. 14-29 yaşda olan gənclər isə əhalinin 25,7 faizinə bərabərdir. Bunların da 51,2 faizini gənc oğlanlar, 48,8 faizini isə gənc qızlar təşkil edir .

2018-ci ilin yanvar-sentyabr aylarında rayonda 877 nəfər körpə dünyaya gəlmişdir ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 4 nəfər və ya 0,3 faiz çoxdur. Bunun da ilkin hesablamalara görə 39,2 faizini şəhər, 60,8 faizini isə kənd yerlərinin sakinləri təşkil edir və əhalinin hər 1000 nəfərinə hesabı ilə diri doğulanların sayı 13,4 nəfər təşkil etmişdir. Hesabat dövründə bütün yaşlarda ölənlərin sayı 420 nəfər olmuşdur ki, bunun da 51,4 faizi şəhər, 48,6 faizi isə kənd yerlərində qeydə alınmışdır. 2017-ci ilin eyni dövrü ilə müqayisədə ölənlərin sayı 24 nəfər və ya 6,1 faiz artmışdır. Ölənlər əhalinin hər 1000 nəfəri hesabı ilə 6,4 nəfər təşkil etmişdir.

Ölüm haqqında tərtib olunan həkim tibbi arayışlarının təhlili onu deməyə əsas verir ki, ölənlərin 90 faizindən çoxu qan dövranı sisteminin xəstəliklərindən, yenitörəmələrdən, tənəffüs orqanlarının və həzm sisteminin xəstəlikləri səbəbindən dünyasını dəyişmişdir

2018-ci ilin yanvar-sentyabr aylarında rayonda 448 nikah bağlanılmış və 68 boşanma halları qeydə alınmışdır. 2017-ci ilin eyni dövrü ilə müqayisədə nikaha daxil olma 0,2 faiz, boşanma halları isə 19,1 faiz azalmışdır. Əhalinin hər 1000 nəfərinə hesabı ilə isə 6,8 nikaha daxil olma və 1,0 boşanma halları qeydə alınmışdır.

Əhalinin sayının artmasının qarşısını alan mühüm amillərdən biri də əhalinin miqrasiyasıdır. Son illərdə davamlı olaraq rayon əhalisinin sosial-iqtisadi vəziyyətinin daha da yaxşılaşması, miqrasiya axını da öz müsbət təsirini göstərmişdir. Belə ki, miqrasiyanin müsbət saldosu 87 nəfərə bərabər olmuşdur.

**Şahin MƏNƏFOV,**
**rayon statistika idarəsinin rəisi**


# "Gündoğar"a abunə yazılışı davam edir

Diqqətinizə çatdırırıq ki, respublikamızın digər mətbuat nümunələri kimi "Gündoğar" qəzetinin əsas maliyyə mənbəyi də abunədir. "Gündoğar" qəzeti də abunədən toplanan vəsait hesabına çap olunur və rayon ərazisində yayılır.

Ona görə sizi bu dəfə də öz doğma qəzetinizə - "Gündoğar"a fəal dəstək verməyə çağırırıq. Və inanırıq ki, bu kampaniya dövründə də ondan köməyinizi əsirgəməyəcəksiniz.

Abunə yazılışı redaksiyada və "Kapital-bank"ın Neftçala filialında həyata keçirilir.

1 illik abunə qiyməti 40 (qırx), 6 aylıq abunə qiyməti isə 20 (iyirmi) manatdır.

**Əlaqə telefonumuz:** 3-44-03,
**mobil:** (050) 333-72-30; (055) 669-56-71


Qaçaqkənd kənd sakini Tərlan Məhəmməd oğlu Həsənovun adına Şirvan Ərazi İdarəsi tərəfindən verilmiş 16 mart 2012-ci il tarixli, 1312001794 qeydiyyat, 807013001381 reyestr nömrəli reyestrdən çıxarış itdiyinə görə etibarsız sayılır.

Neftçala rayonu Xolqaraqaşlı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlikdə fəaliyyət göstərən "Nur" Sudan İstifadəedənlər Birliyinin 29.11.2018-ci il tarixdə keçirilən ümumi yığıncağının qərarı ilə ləğv edilərək qoşulma prinsipi əsasında ərazidə fəaliyyət göstərən digər "Həyat" Sudan İstifadəedənlər Birliyinə birləşmişdir. Bununla əlaqədar maraqlı şəxslər "Nur" SİB-nin rəhbərliyinə müraciət edə bilərlər.

Neftçala rayonu Qaçaqkənd kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlikdə fəaliyyət göstərən "Xəzər" Sudan İstifadəedənlər Birliyinin 29.11.2018-ci il tarixdə keçirilən ümumi yığıncağının qərarı ilə ləğv edilərək qoşulma prinsipi əsasında ərazidə fəaliyyət göstərən digər "Xanməmmədli" Sudan İstifadəedənlər Birliyinə birləşmişdir. Bununla əlaqədar maraqlı şəxslər "Xəzər" SİB-nin rəhbərliyinə müraciət edə bilərlər.

# ALLAH RƏHMƏT ELƏSİN!

Neftçala Rayonu İcra Hakimiyyəti başçısı aparatının kollektivi "Aqrolizinq" ASC-nin Neftçala filialının rəhbəri Vaqif Qurbanova, oğlu

**VASİFİN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Neftçala Rayonu İcra Hakimiyyəti başçısı aparatının kollektivi tanınmış alim, pedaqoji elmlər doktoru, professor

**ƏJDƏR AĞAYEVİN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə, yaxınlarına və doğmalarına dərin hüznlə başsağlığı verir.

"Gündoğar" qəzeti redaksiyasının kollektivi tanınmış alim, pedaqoji elmlər doktoru, professor

**ƏJDƏR AĞAYEVİN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə, yaxınlarına və doğmalarına dərin hüznlə başsağlığı verir.

"Gündoğar" qəzeti redaksiyasının kollektivi "Aqrolizinq" ASC-nin Neftçala filialının rəhbəri Vaqif Qurbanova, oğlu

**VASİFİN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**Baş redaktor H.Ə.ƏSƏDOV**

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydə alınmışdır. Şəhadətnamə №268

Ünvanımız: Az 4700, Neftçala şəhəri, H.Əliyev prospekti 38, Telefon: 3-44-03 Mobil: (050) 333-72-30, (055) 669-56-71 H/H: №AZ95AIIB33080019446400258164 VÖİN: 6500044671

Qəzet "GÜNDOĞAR"ın kompüter mərkəzində yığılıb səhifələnmiş və "Futbol+Qəzeti Redaksiyası MMC" mətbəəsində çap olunmuşdur. Dizayn Fərhad Ağayevin, fotolar Muradındır.

Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər. Tiraj: 650 Sifariş №38 Bir nömrənin qiyməti: 40 qəpik.